TAĞI ŞABANOĞLU

APARDI SELLƏR SARANI

(Nəqşi-Cahanın keşməkeşli tarixi ilə bağlı poema)

NAXÇIVAN
MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN
NAXÇIVANŞÜNASLIQ
MƏRKƏZİ

Daxil olma № 01
"09" fevral 20 13 il

Naxçıvan 2010

Redaktoru: **Abbas Hacıyev**

Tağı Şabanoğlu. Apardı sellər Saranı. Əfsanə-poema. Naxçıvan, "Məktəb", 82səh.

© *"Məktəb" 2010*

M-1158-2906-1807-2010

"Məktəb" nəşriyyatı
Naxçıvan 2010

APARDI SELLƏR SARANI
XALQ ƏFSANƏSİ HAQQINDA
BİR NEÇƏ SÖZ

Dünyanın bir çox yerəlində dağlar, dərələr, ormanlar, çaylar bir-birinə bənzəyir. Yalnız adları fərqli olur. Lakin yer üzündə – bir-birindən o qədər də uzaq olmayan bir məsafədə, bir-birindən o qədər də xəbərsiz Arpaçay adında çaylar axır ki, bunlardan biri Cənubi Azərbaycanın Ərdəbil məmləkətinin Aslandüz səmtində, digəri Türkiyə Respublikasında və başqa biri mənbəyini əzəli Azərbaycan torpağı olan qədim Dərələyəz mahalından götürən, Şərur düzündən coşa-coşa süzərək Araza qovuşan layla-bayatılı Arpaçayı. Xalqın yaratdığı:

Arpaçayı aşdı-daşdı,
Sel Saranı aldı qaçdı
Ala gözlü, qələm qaşlı.
Apardı sellər Saranı,

Bir alagözlü balanı – xalq mahnısına çevrilən şeiri neçə yüzilliklər boyu ürəkləri dağlayan nisgilli nəğməyə dönərək Arpaçaylar ətrafında yaşayan insanların yaratdığı əfsanəyə döndü, dildən-dilə, ağızdan-ağıza keçib bu günümüzə gəlib çatdı...

Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim, ən maraqlı və daha oxunaqlı janrlarından əhəmiyyətlisi sayılan əfsanələr zəmanəsinin müəyyən tarixi həqiqətləri əsasında yaranmış, el təxəyyülünün təsiri ilə bədiiləşərək formalaşmışdır.

Yurdumuzla, ərazimizlə və elimizlə bağlı folklorumuzun zənginliyi onu deməyə əsas verir ki, yer-

yurd, el-oba adları ilə bağlı zaman-zaman kifayət qədər rəvayət və əfsanələr yaranmış xalqımızın dəyərli sərvətinə çevrilmiş milli mənəvi anlayışlar əks etmişdir.

Amma onu da nəzərə almalıyıq ki, hələ də yazı-pozunun meydana gəlmədiyi bir zamanda yalnız yaddaşlardan-yaddaşlara nəql olunan rəvayət və əfsanələrin böyük bir qismi zəmanəmizə qədər gəlib çatmamış, ulu baba və nənələrin kəfənlərində dünyasını dəyişmişdir.

İnsanlarda şüurun zaman-zaman formalaşması, dünyagörüşün zənginləşməsi, güzəranla bağlı ticarət işinin geniş vüsət olması xalq ədəbiyyatının dalğa-dalğa yayılaraq müxtəlif variantlı rəvayət və əfsanələrin formalaşmasına səbəb olmuşdur. Eyni süjet əsasında bir-birinə bənzər, yaxud oxşar nümunələr yaranmışdır. Xalq ədəbiyyatının bir sıra janrlarının yaranmasında iqlimin, təbii şəraitin, dünyagörüşün səviyyəsi öz əksini tapmışdır.

İstər Azərbaycan, istərsə də ona yaxın və uzaq olan məmləkətlərdə bir-birinin bənzəri olan şəhər və kəndlər, çay və dağlar, qaya və qalalar, meşə və ormanlar mövcud olduğundan türkdilli xalqların şifahi xalq yaradıcılığında oxşarlıq və eyniliyin meydana gəlməsinə səbəb olmuşdur. Bu sadaladıqlarım xüsusi ilə qəhrəmanlıq və məhəbbət dastanlarında, əfsanə və rəvayətlərimizdə, lətifə və asairə formalarda öz əksini tapmışdır. Bunun ən canlı nümunəsi "Koroğlu" dastanı, "Molla Nəsrəddin lətifələri" yaxud "Apardı sellər Saranı" əfsanəsi və sairələridir.

Müdrik öndərmiz Heydər Əliyev Cənablarının təbiri ilə desək, doğma Naxçıvanın tarixi baxımdan

əhəmiyyətli bir regionunda yerləşən "Ordubad Azərbaycanın incisidir" deyəndə dahi öndər Ordubad ərazisində tarixi dəyərlərin zənginliyini, bir sıra memarlıq abidələrinin bu günümüz üçün böyük əhəmiyyət kəsb etməsini, doğma Aəzərbaycanın varlığının ulu bir keçmişə malik olduğunu nəzərə almışdır. Ordubad ərazisində yerləşən "Gəmiqaya" dağı xalqımızın sanı bəlli olmayan ulu bir keçmişə malik olmasına canlı sübutdur. Bəlkə də onun ərazilərində və hüdudlarından çox-çox uzaqlarda yaşayan əhali Nuh gəmisi qayalara çırpılıb parçalandıqdan sonra Yer üzünə yenidən təşrif gətirən və yeni həyatı icmadan başlayan ilk insanlar olmuşlar. Yaşlıların nəql etdiyi kimi "Gəmiqaya" haqqında belə bir motivdə əfsanə, yaxud rəvayət yaranmışdır.

Gəminin qayalara çırpılıb parçalanmasına səbəb suyun yavaş-yavaş yerə çəkilməsi olmuşdur. Tam bəlli olsun deyəı Nuh qarğaya buyurur ki, gəmidən uçaraq yerə en, elə ki, torpaq əlaməti gördün, qayıt bizə xəbər ver. Qarğa dərhal yerə enir, bir sıra yerlərdə suyun çəkildiyini görür. Nuhun buyruğunu unudaraq suyun altında qalıb boğulmuş həşarat və heyvan cəsədlərini yeməklə məşğul olur. Nuh intizarda gözləyir, qarğa soraq gətirmir. Onu qarğayır ki, ruzun və qidan üfunət basmış həşarat və heyvan cəsədləri olsun! Eləcə də, "qarğa" sözü Nuh babamızın onu qarğamasından əmələ gəlib. Əlacsız qalan Nuh məsum quşlardan birini – göyərçini Yerdən soraq gətirməyə göndərir. Quş uçaraq yerə enir, yerdə həyat əlamətlərini görür. Müşahidə edir ki, ot və bir sıra bitkilər cücərərək yerdən baş qaldırıb. Yerdə insan və bir sıra canlıların həyatı üçün ən

əhəmiyyətli və əvəzsiz olan sümbüllər baş qaldırıb. Göyərçin bir sümbülü dimdikləri arasına alıb Nuha müjdə gətirir. Nuh sümbülü görüb sevinir, yeni həyatın başlandığını nəzərə alıb parçalanmış gəmidən canlıların yerə tökülməsinə qərar verir. Yeni həyat üçün ümidlərinin çin olduğunu, buğda bitksinin göyərməsinin insanlar üçün ən önəmli olduğunu nəzərə alıb müjdə gətirən bu quşa "göyərçin" adını vermişdir. Ona görə də ta qədim zamanlardan bəri həyat rəmzi olan göyərçin quşlarını rəsm edərkən onların dimdikləri arasında sümbül rəsm etməyi unutmamışlar.

Nuh qövmünün yer üzünə pənah gətirməsi, yəni həyatın başlanması, coğrafi varlıqların nəqş olunması elə bu diyardan tədricən, zaman-zaman yayılmasına səbəb olmuş "nəqşi-cahan", sonralardan Naxçıvan kimi ulu bir keçmişə malik olan möhtəşəm bir diyarın yaranmasına səbəb olmuşdur. Bütün insanların çoxala-çoxala nəqş olunması, yaxın və uzaq ərazilərdə məskən salması Nuhun gəmisi parçalandığı diyardan-nəqşi-cahandan başlanmasını fərz etmək məqsədə uyğundur.

Doğma Naxçıvan diyarının hər bir guşəsində yer-yurd adları ilə bağlı zənginlik olduğu kimi, Ordubad ərazisində də xalq ədəbiyyatının dəyərli incisi olan yer-yurd adları ilə bağlı olan rəvayət və əfsanələr mövcuddur.

Onlardan "Oğlan-qız qalası", "Gəlin qayası", "Keçi qalası", "Dəli yağı", "Küp qarısı", "Torta siçan", "Tillək düzü" "Madyan dərəsi", "Qanlı göl", "Gəlin bulağı" və s. nümunə çəkmək olar.

Qoca tarixin hər bir zamanında istila və hücumlarla bağlı, yaxud ailə-məişət məsələləri ilə əlaqədar hadisə-

lər müəyyən süjet əsasında formalaşmış, canlı xalq dilində bədiiləşərək rəvayət və əfsanə şəklinə düşmüş, elin dəyərli və əhəmiyyətli sərvətinə çevrilmişdir.

Bir daha onu da xatırladaraq demək istəyirəm ki, elin yaddaşında formalaşan rəvayət və əfsanələr zəngin bədii təsvir vasitələri ilə zənginləşmiş, daha da oxunaqlı olmuş, yaddaşlara həkk olunmuşdur.

Yaranmış əfsanələrin ən dəyərlisi sayılan "Apardı sellər Saranı" əfsanəsi bu günümüz üçün də önəmli bir əhəmiyyətə malikdir. Bu el əfsanəsini uydurma, rəvayət kimi qəbul etmək düzgün olmaz. Ailə-məişət məsələləri ilə bağlı hadisələr el təxəyyülündə əfsanələşmiş, üstəlik Saranın başına gələn müsibətlər notsuz bəstəkarlıq qabiliyyətinə malik olan elin duyğularında poetik xalq mahnısı kimi bəstələnmişdir.

Güneyli-quzeyli doğma Azərbaycanımızın iqlim və ərazi cəhətdən bir-birinə bənzəri olan əraziləri, yer-yurd adları, qala və tarixi abidələri bu gün də mövcud olduğu kimi, xalq ədəbiyyatı baxımından bir-birinin oxşarı, yaxud eyni olan müxtəlif variantlı folklor nümunələri mövcuddur.

Cənubi Azərbaycanın ərazisində Qaradağ, Qarabağ, Qaraçay, Qarasu, Qanlıçay, Qanlıgöl, Qanlıdərə, Nənəmvay, Dədəmvay, Arpa gölü, Arpadərəsi (Təbriz yaxınlığında) Arpa çeşməsi, Arpadüzü, Arpaçayı (Aslandüz ərazisində) və sairə kimi tarixi hadisələrlə bağlı ərazilər və yer-yurd adları mövcuddur.

"Apardı sellər Saranı" əfsanəsi Arpaçayı ilə əlaqəlidir. Naxçıvan diyarının Şərur rayon ərazisində çoşqun suları ilə tanınmış Arpaçayı vardır. Çay bu gün də mövcuddur. Bədəməlli qənim erməni qonşumuzun

çayın suyundan başqa məqsədlər kimi istifadə etməsi suyun səviyyəsini xeyli azaltmasına səbəb olmuşdur. Böyük tədqiqatçı alim akademik İsa Həbibbəylinin təbiri ilə desək bu çay zaman-zaman bəlkə də, yüzlərlə qız-gəlini ağuşuna alıb boğmuşdur. Eləcə də, Saranın özü də sevmədiyi adama ərə getməkdənsə, özünü Arpaçayına atıb boğulmağı məsləhət bilmişdir. Sara özünü intihar etməklə saf eşq və məhəbbətinə sadiq qalmış, əbədiyyətə qovuşmuş, xalqın qəlbində mütəmadi yenilməz eşq və məhəbbətini daima yaşatmağa nail olmuşdur. Bu hadisədən bəlkə də, min illər keçməsinə baxmayaraq, bu gün də Sara bizim nəzərimizdə, eləcə də gözlərimiz önündə qəddi-qamətli, gözəl-göyçək, dərin və atəşli məhəbbətlə sevən, bir baxışla insanları valeh edən subay bir gəlin kimi canlanır. Neçə illər, əsrlər ötsə belə, gələcək nəsillər üçün Sara təravətli, gözəl-göyçək görünəcək, könülləri oxşayacaq, qəlblərdə incə duyğuları alovlandıracaq elimizin yenilməz sevgilisinə çevriləcək, sevib-sevilən gənclərimiz üçün pak və ülvi rəmzin bari nümunəsi olacaqdır.

Bu gün Sara təkcə Xançobanın deyil, təmiz saf eşqə. Məhəbbətə, sevgiyə malik olan bütün Azərbaycan xalqının sevgilisidir. El məhəbətinin coşğunluğu, Saranın sonsuz eşq-məhəbbəti varlığı ilə tanınan elimizdə əxlaqi dəyərlik yaranmasına və formalaşmasına səbəb olmuşdur.

Möhtəşəm Naxçıvan diyarı hər tərəfli dəyərlərlə zəngin olduğu kimi öz gözəlləri ilə də misilsiz söhbət qazanmışdır. Bu diyarın başdan-başa bütün qız gəlinləri saf ilqara, sonsuz məhəbbətə, ülvi sevgi hisslərinə

malikdir. Sara incə duyğulara malik Azərbaycan qız-gəlinlərinin bu günümüz üçün də yenilməz simvoludur.

Bir cəhəti də unutmayaq ki, mənfur erməni qonşularımızın ərazisində, eləcə də qardaş Türkiyə torpağında da, bu gün də Arpaçayı mövcuddur. Bu ərazilərdə Sara əfsanəsi ilə bağlı heç bir əfsanə, yaxud rəvayət yaranmamışdır.

Cənubi Azərbaycanın Muğan düzü adlanan yurdunda Aslandüz adlanan bir ərazi vardır. Aslandüz ərazisində Arpaçay adlanan bir çay mövcuddur ki, o çay öz mənbəyini Muğanın ucqar kəndləri olan Getayrı, Keçiqıran, Güngörməz, Şahbəndə, İbrahim Şəmi kimi ərazilərindən götürür. Qədim zamanlarda bu çay çox sulu olmuş, yaz və payız aylarında aşıb-daşaraq Muğam ərazisindəki əraziləri basmış, əkinçilik və əsasən maldarçılıqla məşğul olan əhaliyə böyük maddi ziyanlar vurmuşdur. Lakin sonralardan Arpaçayın suyundan əraziləri suvarmaq üçün arx və kanallar çəkildiyindən çayın suyu azalmış, yay aylarında qurumuş vəziyyətə salınmışdır.

"Apardı sellər Saranı" əfsanəsinin Cənub variantında dünyagörmüş ağsaqqallar, ağbirçəklər belə xatırladır. Cənubi Azərbaycanın Şahbəndə kəndinin sakini 103 yaşlı Nabat nənə söyləyir ki, mən yeniyetmə idim, nənəm mənə nağıllar, rəvayətlər və əfsanələr danışardı. O mənə bir neçə dəfə "Apardı sellər Saranı" əfsanəsi haqqında rəvayət söyləmişdi.

Nənəm nəql edirdi ki, ulu babamın dediyinə görə Sara Şahbəndə kəndindəndir. Sara uşaq ikən anasını itirib. Atası ilə bibisi Saranı körpə yaşından tərbiyəsi ilə məşğul olmuşdur. İndi olduğu kimi, ta qədimdən də

yerli əhalimiz Köçəri həyat tərzi keçirmişdir, bu gündə keçirməkdədir. Payız-qış aylarında qız və gəlinlərimiz bir-birindən gözəl, naxışlı, nağılları təsvir edən xalı və xalçalar toxuyardılar. Novruzqabağı xalı, xalça və fərşlər evlərin bəzəyi olardı.

Saranın atasının böyük sürüsü var idi. Sara çox zaman atasına qoşulub kömək məqsədilə sürü otarmağa gedərdi. Elə ki, Sara həddi-buluğa çatdı, Muğam ərazisinin otlu-çiçəkli otlaqlarına bələd oldu, çox zaman sürünü özü tək otarmağa gedərdi.

Günlərin bir günü, çiskinli, dumanlı bir gündə Xançoban adında bir gənclə rastlaşır. Xançoban Muğamın ucqar kəndi sayılan Keçiqıradan idi. Lakin yeniyetmə dövründən əyalətdə xana çobanlıq etmişdi.

Rəvayətə görə dumanlı havada Saranın sürüsünə canavar təpilir. Sara yanındakı köpəklərin və əlindəki dəyənəyin köməyi ilə quduz canavarları qovmağa çalışır. Haray edib, qışqırıq salır. Haray-qışqırıq fayda vermir. İtlərin hürüşünə, Saranın haray səsinə Xançoban köməyə gəlir, bir canavarı öldürür, ikisini də yaralayır. O, Saranın sürüsünü xilas edir. Elə oradan da Sara ilə Xançobanın eşq macərası başlayır.

Saranın atası qızını qardaşıoğluna vermək istəyirdi. Bu məqsədlə bir gün Saranın atası qızını yanına çağırıb deyir:

Qızım, mənim bu dünyadan köçməyimə az qalıb. Amma səndən bərk nigaranam. Dünyadan nisgilli köçmək istəmirəm. Mən diriykən səni xoşbəxt etmək istəyirəm. Razılıq ver, səni qardaşımoğluna nişanlayaq. Atasının bu sözündən sonra Sara giryan-giryan göz yaşları tökür. Ata çox pərişan olur. Qızından nə üçün

kədər və qüssəyə batdığını soruşur.

Sara utana-utana belə cavab verir:

Ata, vecsiz və avara həyat keçirən əmimoğlu ilə mən xoşbəxt ola bilmərəm. Onda sevgi və məhəbbət hissi yoxdur. Məni öldür, amma ona verməklə başımı müsibət və bəlalara salma. Bir də ki, mən Muğamda sürü otararkən Xançoban adlı bir gəncə könül vermişəm. Ata bu sözlərdən sonra qızına heç nə demədi.

Bir neçə gündən sonra Xançobanın elçiləri gəldi. Adət-ənənəyə uyğun, el qaydası ilə saranı Xançobana nişanladılar.

Həmin gecə Sara sevincindən yata bilmədi. Sübh tezdən yatağından qalxıb sürünü qabağına qatıb Muğan çölünə gəldi.

Dan yeri sökülmüşdü. Dan ulduzu öz parlaq şöləsi ilə ətrafa bərq vururdu. Hardansa qara bir bulud parçası Dan ulduzunun qabağını kəsdi. Yenicə açılmaq səhər yenidən qaranlığa büründü. Saranın duyğuları, sevinc hisləri əriyib yox oldu.

Həmin səhəri Xançoban yubanmışdı. Ona görə də Sara heybəhey ətrafa göz gəzdirirdi.

Bir anda onun gözləri önündə başqa hadisə baş verdi. Onun qarşısından bir-birindən gözəl irili-xırdalı ceyran sürüsü keçdi. Ceyranlardan biri yaralı idi.

Ceyranlar gözdən itdi. Bir neçə atlı Saranın dayandığı tərəfə atını çapırdı. Qabaqda gələn atlı yoldaşlarından ayrılıb Saraya tərəf gəldi. O, Saranı əyni yapınçılı, motalpapaqlı, əli uzun dəyənəkli görüb kişiyə bənzədərək soruşdu:

Ədə, qırışmal tərəkəmə çobanı, buradan ceyran sürüsü keçdimi?!

Saranı sorğuya tutan atlı Muğamın Aslandüz əyalətinin xanı idi. Sara üzünü xana tərəf tutmadan cavab verdi:

Keçdi, ceyranlardan biri də yaralı idi. Xan çobanın qız olduğunu görüb gözlərinə inanmadı. Atı ilə bərabər Saranın dövrəsinə fırlanıb üzünü naməhrəm kişidən gizlətməyə çalışan Saranı yaxşı-yaxşı süzməyə cəhd edirdi. Amma yaylıq örtmədiyindən üzünü gizlədə bilmədi.

Saranın gözəlliyinə heyran qalan xanın ürəyindən gurultulu bir nida qopdu. Az qaldı ki, o atdan yerə sərilsin, özünü güclə saxladı, iki əllərini dayaq edib atın yəhərindən bərk-bərk tutdu.

Xan gözəllikdə tayı-bərabəri olmayan Saraya belə vuruldu. Ceyran ovuna çıxdığını unutdu. Öz-özünə dedi: Elə ovlayacağım əsl ceyranı burada nişanladım, qaldı bircə onu ovlamaq. O da çox asandı, çünki bu ceyran ovcumun lap içindədir.

Xanın ürəyindən qəzəb hissi yox olub getdi. Onda gənclərə xas olan sevgi və məhəbbət hissləri baş qaldırdı.

Mülayim bir tərzdə Saranın hansı obadan olduğunu soruşdu. Sara Şahbəndədən olduğunu dedi:

Atın cilovunu əlində bir təhər saxlayan xan utanıb çəkinmədən birbaşa dedi:

Get hazırlaş, elə sabahdan toyunu vurdurub səni sarayımda səni hərəmlər-hərəmi, xanımlar-xanımı edəcəyəm. Dünyanın ən xoşbəxti olacaqsan. Bütün buyruqlarını kənizlər bir göz qırpımında yerinə yetirəcəklər.

Sara atlının coşa-coşa qudurduğunu görüb dedi:

Yanşağın sinəsi, dəmirçi kürəsi kimidir ha döyəcləsən qızışacaq.

Əmi onu bilməlisən ki, həddi-buluğa çatmışlar üçün ən böyük xoşbəxtlik azad sevgidir. Sənin sevgin qaba tikanlı bir kolun məsum bir gülə olan məhəbbəti kimidir. Mənim zərrə qədər sənə məhəbbətim yoxdur, yolçu yolda gərək.

Sanki xan gözləmədiyi bu sözlərdən diksindi. Dartınıb getmək istəyən atını zorla saxladı. Dişlərini qıcayıb qəzəblə dedi:

Səni zorla da olsa, özümə arvad edəcəyəm. Sonra xan qəzəblə atına bir-iki qamçı çəkib oradan uzaqlaşdı.

Saranın halı dəyişdi. Qəlbində min cürə əcaib fikirlər dolaşdı. Həmin günü Muğan çöllərində nisgilli bulut kimi göz yaşları tökdü. Qaş qaralanda sürünü qabağına qatıb obaya gəldi. Onu həm üzgün, həm də çox pərişan gördülər. O, bir az xəstə olduğunu dedi.

Ertəsi günü bir dəstə atlı Saragilin obasına tərəf çapırdı. Onlar hürüşən köpəklərə məhəl qoymadan alaçıqlara yaxınlaşıb dayandılar.

Başı motal papaqlı, lopabığ, üz-gözündən zalımlıq yağan atlı Saranın atasını səslədi.

Əlindəki çuvalduzla atının yəhərini yamayan Saranın atası ayağa qalxıb irəli yeridi.

Lopabığ kişi salam vermədən özünü təqdim etdi. Xanın elçiləriyik, xanın buyruğu ilə qızına başlıq gətirmişik. Xan toy vurdurur. Elə bu gün qızını xan üçün aparmalıyıq. Bu sözlərdən sonra lopabığ kişi sağ əliylə buğlarına sığal çəkib qəribə bir tərzdə gülümsəyərək dedi:

- Gözlərin aydın olsun, qoy qoşa qarısınlar!

Yerində donub qalan Saranın atası qəzəbləndi. Xana verməli qızım yoxdur, dedi. Xan getsin tayını tapsın. Mənim qızım Xançobana nişanlıdır, əqdi də oxunub.

Lopabığ kişi atdan enib irəli gəldi. Necə də nişanlıdır?! Necə də xana verməyə qızım yoxdur?! Kəlmələrini qəzəblə təkrar edə-edə Saranın atasını qırmancın altına saldı. Digər yasovullar da kişinin üstünə tökülüşdülər. Onun üz-gözündən al qanlar axmağa başladı. Kişi zorla ayğa qalxıb payalardan birini götürdü. Lopabığ zalımdan qisasını almaq istədi. Digər bir elçi əlindəki xəncərlə Saranın atasını vurub yerə sərdi.

Saranın əmisi qabağa yeridi. Onu da qılınc zərbəsi ilə vurub yerə sərdilər. Alaçıqda aləm bir-birinə qarışdı, nalə və fəryad səsləri bir-birinə qarışdı. Xeyli aralıda sürü otaran Sara atına minib qaçmaq istədi. Atlılar onun dalınca düşdülər. Onu qovub tuta bilməsələr də kəmənd atıb atını saxladılar. Saranın əl-qolunu sarıyıb yenidən öz atına mindirib yola düşdülər.

Sara yol boyu nə dinir, nə danışırdı. Atasnın və əmisinin vəhşicəsinə öldürülməsi gözlərinin önündən çəkilmirdi. O, yeridikcə Muğan çölü onun nəzərində Kərbala düzünü xatırladırdı.

Bir neçə saatlıq yoldan sonra Saranı xanın sarayına tərəf gətirdilər. Sarayın ətrafı adamlarla dolu idi. Zurna və balaban səsi aləmi bürümüşdü. Zurnaların züy səsi qulaqları tuturdu. Xan intizarla Saranın gəlişini gözləyirdi. Atlıların gəldiyini görən nökərlərdən biri çuxasının ətəyini dartıb düzəltdi, üz-gözünün torpağını silərək xanın yanına qaçıb muştuluqladı. Xan, gözlərin

aydın olsun, Saranı gətirdilər dedi:

Xan əlini cibinə salıb sol cibindən bir ovuc gümüş pul çıxarıb nökərin ayaqları altına atdı. Saraydan çıxıb Saranın qabağına tərəf yeridi. Əli ilə işarə etdi ki, onun əl-qolunun açıb atdan yerə endirsinlər.

Sara inad etməyin faydasız olduğunu düşündü. Qəti dinmədi. Xan bir az da qabağa yeriyib dedi:

Xanımlar-xanımı, qədəmlərin yüngül və mübarək olsun. Sonra əlavə etdi ki, onu yuyundurun, gəlin paltarı geyindirib hərəm otağına aparın!

Sara çıxış yolunu özünə qəsd etməkdə gördü. Sanki bir az mülayimləşərək dedi: İzn ver, bu adamlardan bir az ayrılıb Arpaçayın sahilinə gedim. Ərz halımı, xoşbəxt olmaq üçün dərdi-sərimi suya danışım, su xoşbəxtlik əlamətidir.

Əhdim budur ki, zifah gecəsi əl-üzümü Arpaçayın suyu ilə yuyum. Bəlkə coşğun, dəli kimi hayqıram köpüklü sular mənim inadımı soyuda. Xan sevinclə razı oldu. Sara Arpaçayın gur axan dərin səmtinə tərəf gəldi. Son dəfə sonsuz üfüqlərə, Muğan çöllərinə göz gəzdirdi. Dərindən bir ah çəkdi. Gözlərindən hicran göz yaşları tökülərək Arpaçaya qarışdı. Fani dünya, mənasız həyat, ömrünü bada verən nakam məhəbbətim sözlərini deyib əlavə etdi: əlvida pak məhəbbətim, ülvi eşqim, əbədiyyət yaşadıqca sən də yaşa, həmişə təravətli ol sözlərin deyib özünü Arpaçayın gur sularına atdı. Köpüklü suların içində qərq oldu.

Folklorşünaslarımızın apardığı araşdırmalar onu sübut edir ki, "Apardı sellər Saranı" əfsanəsi sırf Naxçıvan ərazisində yerləşən Şərur ərazisindən axan gursulu Arpaçayla daha çox bağlıdır. Qaldı burada

Muğam məsələsi. Muğan sözü qədim türk sözüdür. Mülayim iqlimə malik, otlu, güllü-çiçəkli ərazilərə deyilir. Bu söz daha çox aranla bağlıdır. Muğan ərazisi təkcə güneyli-quzeyli Azərbaycana deyil, dünyanın bir sıra ərazilərində mövcuddur. IX əsrdə yaşayıb yaratmış Mahmud Kaşğarinin "Divani-lüğət it türk", Türk dillərinin lüğət divanı kitabında muğan sözü otlu-çiçəkli, mülayim iqlimə malik aran, orman kimi verilir. Dilçilikdə onun dialektologiya bölməsində gah ismi, gah da feli birləşmələrdə, eləcə də frazeoloji birləşmələrdə muğan sözü bir neçə mənalarda işlədilir.

El arasında "muğana düşüb", muğan yeri, "muğan camısı" yaxud "muğanda yeyib yatır" ifadələrinə rast gəlirik.

Ən çox işlədilən bu ifadələr Naxçıvan Respublikasının ərazilərində yaşayan əhalinin dialekt və şivələrində özünü biruzə verir və verməkdədir.

Buradan belə bir nəticə çıxır ki, "Apardı sellər Saranı" əfsanəsi çox qədim, ulu bir keçmişə malik Şərur ərazisi ilə bağlıdır.

APARDI SELLƏR SARANI

Proloq

Vardı çox obalar Şərur düzündə,
Muğanlı çölündə ney səslənərdi.
Bu ellər zəhmətlə yaşardı burada,
Qoyunlar, quzular çox bəslənərdi.

Sürülər görünər, hey tala-tala,
Ağ-qara quzular burda mələşər.
Sürüyə təpilsə, əgər canavar,
Çoban itləri də qurdla güləşər.

Çölləri, düzləri daima yaşıl,
Təpələr gəlin tək geniş ətəkli.
Yazı da, yayı da başqa bir aləm,
Bütün ormanları güllü-çiçəkli.

Qonaqlı-qaralı idi obalar,
Nifrət edərdilər, düşmənə, yada.
Pərvanəyə dönüb fırlanardılar,
Qonağa ehtiram vardı burada.

Toy-büsatlı olar bütün fəsillər,
Süfrələr bəzəyər qaymağı balı.
Cavanlar geyinər milli libaslar,
Mağar ahəngiylə gedərlər yallı.

Bağlı-büsatlıdır tamam bu yerlər,
Meyvəli ağaclar başını əyib.

NAXÇIVAN
MUXTAR RESPUBLİKASI
ALLİQOLİSİNİN
NAXÇIVANŞÜNASLIQ
MƏRKƏZİ
Daxil olma No 01
"09" fevral 2013-cü il

Şərur yallısının neçə yaşı var?
Hələ bu gündən heç bilinməyib.

Nə çoxdur burada dünyagörmüşlər,
Müdrik sifətlidir burda qocalar.
Köçəri quşları köç edən zaman,
Durnası qaqqıldar, həm qanad çalar.

Uşaqlar nənəni alıb dövrəyə,
Şirin nağıllara qulaq asarlar.
Cırtdanın nağılın o danışanda,
Uşaqlar qorxaraq hərdən çaşarlar.

Əfsanə söylərdi hərdən nənələr,
Deyər sellər basdı bir gün aranı.
Nakam məhəbbətli gözəl balanı,
Arpaçay apardı gəlin Saranı.

Nənə danışdıqca artırdı maraq,
Hərdən paylayardı badam, ya püstə.
Şirin nağıllara qulaq asanlar,
Yuxuya gedirdi dizləri üstə.

İlahi qüdrəti vardı aranda,
Tamam xoşbəxt idi, burdakı ellər.
Yoxdu bərabərdə, abı-havası,
Vardı eşqə sadiq nazlı gözəllər.

Düzənlər, yamaclar xalı naxışlı,
Atlas libasını geyib bürünər.

Qışı da, payızı bahara bənzər,
Gəlin görkəmində daim görünər.

Otlardı sürülər bu oylaqlarda,
Könüllər oxşardı ruhu, nəfəsi.
Heyrətə düşərdi canlı da, cansız,
Min aləm yaradar ney-tütək səsi.

Obalar qurular yazda baharda,
Sellər nərə çəkib həddin aşardı.
Qoyunlar, quzular doyunca yeyib,
Gül-çiçək içində oynaqlaşardı.

Sehrli bir aləm vardı burada,
Quşlar cəh-cəh vurub hey oxuyardı.
Bülbüllər qonaraq gül budağına,
Qönçəni öpərək hey qoxlayardı.

Şimşəklər çaxaraq göy guruldayar,
Gül-çiçək diksinib boynun qısardı.
Sonra Fatma nənə rəngli kələfdən,
Enli göyqurşağın tez toxuyardı.

Şərur muğan imiş aqillər demiş,
Buludlu, çiskinli olardı göylər.
Muğan muğan olsa, biri üç eylər,
Muğan tufan olsa, üçü heç eylər.

Tanrı öz təbii aləm yaratmış,
Gözəllik, göyçəklik vardı, aramda.

Hər yanı sel-sular ney bürüyərdi,
Buludlar ağlayıb şimşək çaxanda

Gül-çiçək yuyunar yağış suyunda,
Qara xal görünər, al yanağında.
Cənnətə dönərdi büsbütün hər yan,
Baharın əvvəli, novruz çağında.

Bir aləm yaranar bayram çağında,
Hər kəs bəzəyərdi burda obasın.
Qəşəngdən çox qəşəng görünmək üçün,
Qız gəlin geyərdi bayram libasın.

Sara dünyaya gəlir

Arpaçay çölündə bir oba vardı,
Orda bütün məxluq gözəl kəslərdi.
Özləri tapardı daim ruzusun,
Mal-qara otarar, sürü bəslərdi.

Sonsuz bir ailə vardı burada,
Fəqirə, yoxsula nəzir paylardı.
İstəyib Allahdan bir gözəl övlad,
Səcdəyə düşərək hey ağlayardı.

Xaliq bəxş eylədi bir gözəl övlad,
Üzü girdəsifət, gözləri qara.
O, çox gözəl idi körpəliyindən,
Bu qızın adını qoydular Sara.

Hər insan xəbərsiz gəlir dünyaya,
Ömrü özü bölür Böyük Yaradan.
Saranın arzusu qaldı yarımçıq,
Ana nakam köçdü fani dünyadan.

Sara uşaq ikən o qaldı yetim,
Bədbəxtəm söylədi, özü-özünə.
Dedi ana deyib mən dil açanda,
Zəmanə şilləsin vurdu üzümə.

Sara qüssələnib hey düşünərdi,
Yaman qəribədir taleyin işi.
Deyərdi dünyada şirindən-şirin,
Ana məhəbbəti, ana sevgisi.

İllər ötüb keçir, o yaşa dolur,
Tanrıdan xoşbəxtlik o diləyirdi.
Abırlı, həyalı gəzib dolaşıb,
İstini, soyuğu dərk eləyərdi.

Böyük bir sürüsü vardı onların,
Atası sürünü tək otarardı.
Qoyun-quzuları yayıb çöllərə,
Gününü zəhmətlə vurardı.

Obaya dönərdi şər qarışanda,
Çiskinə düşəndə bəzən əsərdi.
Dünyada özündən bəlkə də əziz,
Saranı görməyə o tələsərdi.

Önündə oynaqlar qoyun-quzular,
Aşıb-daşar idi onun həvəsi.
Sürü obasına qayıdan zaman,
Aləmi tutardı mələşmə səsi.

Sevincək yürüyüb qabağa gəlib,
Əridər sevincək kədər hüzünü.
Öpüb üz-gözündən məhəbbət ilə,
Bağrına basardı qumral quzunu.

Quzular mələşib anasın tapar,
Şirindən çox şirin ana südünü.
Çoban da soyunub yapıncısını,
Yuxuya gedərdi rahat o günü.

Sara boy atırdı nazla, həvəslə,
Daim nəzərlərdə bir inci idi.
Aləm rəsm etmişdi öz qələmiylə,
Bütün obasının sevinci idi.

Bu qız çox sevirdi, əziz atasın,
Elini, yurdunu, həm də obasın.
Avazla deyərdi oxşamaları,
Ney ilə çalınan layla havasın.

Atılar atanın o qucağına,
Ürək sözlərini deyib coşardı.
Öpüb atasının hey üz-gözündən,
Övlad sevgisiylə qucaqlaşardı.

Gözəllik bəxş etmişdi, ona ilahi,
Onda sonsuz eşqin qüdrəti vardı.
Çox yenilməz idi, əhdi-vəfada,
Bütün aləmində o, bəxtiyardı.

Durna qatarına döndükcə illər,
Saranı rəsm etdi, tale qələmi.
Eşq sövdasına düşdü bu gözəl,
O, heyran qoyardı bütün aləmi.

Sevgi aləminə qədəm basanda,
Bilmirdi dərdini o kimə desin.
Gizli saxlayırdı məhəbbətini,
Daim axtarırdı sədaqətlisin.

Ürəkdə dəfn edib məhəbbətini,
Çox uca tuturdu öz niyyətini.
Belə zaman-zaman o səbr edirdi,
Təmkinlə axtardı o qismətini.

Hərdən öz-özünə incə avazla,
Mahnılar, muğamlar hey oxuyardı.
Yunlardan əyrilmiş növ-növ kələfdən,
Naxışlı xalılar o toxuyardı.

Aləm yaranardı xalçalarından,
Səyyarə təsvirli incə naxışlar.
Müdrik aqillər tək dastan söyləyər,
Möhtəşəm keçmişi bizə bağışlar.

Millərə düzərək acı günləri,
İlmələr olardı eşqi, vüsəti.
Naxışlar arabir qıfılbənd olub,
Tapardı özündə saf məhəbbəti.

Yox idi heç yerdə onun bənzəri,
Eşq paylayardı o, yana-yana.
Ona bir baxışla vurğun olurdu,
Düşmüşdü sədası bütün cahana.

Gərilmiş qaşları kamana bənzər,
Lalə qönçəsinə oxşar dodağı.
Yalnız bir baxışla əsir edərdi,
Dan ulduzu təkin o, səhər çağı.

Hərdən atasının yanına düşüb,
Sürü otarmağa kömək edərdi.
Muğanlı çöllərdən çiçəklər dərib,
Rəngbərəng naxışlı çələng hörərdi.

Yazığı gələndə o atasına,
Sürünü çox zaman tək otarardı.
Ormanı gəzərdi o qarış-qarış,
Onun igidlər tək cürəti vardı.

Hərdən çomağına o dirəklənib,
Xəyala dalaraq şükr edərdi.
Çox uca tutardı məhəbbətini,
Sürünün ardınca daim gedərdi.

Əllərin qaldırıb uca göylərə,
Gözə görünməzə o yalvarardı.
Səcdəyə düşərək o, diləyərdi,
Qumral gözlərindən yaş axıdardı.

Onda ülvi eşqin qüdrəti vardı,
Qurban eyləmişdi məhəbbətini.
Daim sadəliyi, səmimiliyi.
Ucaltmışdı onun çox şöhrətini.

Utana-utana cavab verərdi,
Sorğuya tutanda ona hər kəsə.
Qəlbinə yazı tək o köçürərdi,
Ona ürək açan hər kim nə desə.

Qəlbiylə sevdiyin o ovlayardı,
Sanki aləmində çox bəxtiyarıdı.
Onun aləmində bu sirli həyat,
Arzular doğuran ilk baharıdı.

Yuxular görərdi qarmaqarışıq,
Sonra çin olardı onun yuxusu.
Zalımlar əlində əsir olacaq,
Qəlbindən getməzdi onun qorxusu.

İncə məxluqlarda adət yaranıb,
Yağışlı bulut tək boşalıb dolmaq.
Şirin görünsə də, acıdır həyat,
Bədbəxtlik gətirər çox gözəl olmaq.

Nə idi, bilinmir onun günahı,
Eşqi daşa dəysin, o düşsün dara.
Əhd-vəfasına sadiq gözəlin,
İstəyi zülm olsun, bəxti də qara.

Burda sirr vardı, ey ulu Tanrı,
Bu məsum bəndənin nədir günahı?
Onun da qəlbində öz istəyi var,
Yandırsın aləmi çəkdiyi ahı.

İstəyi, cismi də onun məhv olsun,
Nəzərdən çox şeyi belə atmısan.
Fani dünya üçün bu bədbəxt qızı,
Axı istəyinlə sən yaratmısan.

Ver ona istəyin olsun o, xoşbəxt,
Gəlinlik paltarı qoy olsun donu.
Bu dünya heç kəsə vəfa qılmayıb,
Onsuz da dünyanın heç yoxdur sonu.

Qüsursuz yaranır yaratdıqların,
Gah şirin, gah acı görünür aləm.
Tanrının qətiyyən bir səhvi olmaz,
Məsum xəlq edənə çəkirsən qələm.

Sirlidir dünyanın hələ çox işi,
İnsan bərkə düşür, gəlir imdada.
İnsan əvvəl-axır bəlalar çəkir,
Ürəyi dağlanır, fani dünyada.

Xançobanla Saranın görüşü

İlin bütün fəsillərində Şərur mahalının ucqar ərazilərindən Arpaçayın Muğana bənzər ormanlarına qoyunlu-quzulu sürülər gələr, otlu-çiçəkli yaşıl düzlərdə heyvanlar bəslənərdi.

Hər tərəfdə tala-tala görünən sürülər aləmdə qəribə bir mənzərə yaradardı. Hər il iki dəfə sürülər artıb çoxalırdı. Qoyunlar Allahın fağır heyvanları olduğundan daim artıb törəyirdilər. Yalnız onlara əzab verən yırtıcı canavarlar idi.

Günlərin bir günü ana canavar beş-altı balası ilə uca bir dağın başında durub ətrafa tamaşa edirdi. Canavar balalarından biri anasından soruşdu:

- Ana, o tala-tala görünənlər nədir?

- Ana canavar kədərli-kədərli dedi:

- Qoyun sürüləridir, bala!..

- Canavar balası dübarə anasına dedi:

- Ana, qoyun neçə bala doğar? Ana, bir ah çəkib dedi ki, qoyun bir bala doğar. Ya da təsadüfən iki bala doğar.

- Canavar balası yenə də maraqla anasından soruşdu:

- Bəs sən neçə bala doğarsan?

- Ana canavar dedi: İldə iki dəfə balalayıram. Hər dəfə də 6-7 bala doğaram.

- Bala canavar həyəcanla dedi:

-Bəs nə üçün bizim dünyada sürümüz yoxdur?!...

- Canavarın gözündən bir neçə damla yaş düşdü, acı-acı dedi:

Əziz balam, o paxıllıq bizdədir, hələ bu dünyada çox qalmışıq.

Bu aram çöllərdə ziyanlar vuran yırtıcılarla yanaşı digər heyvanlar aləmi də var idi. bir tərəfdən sözlü-nəğməli, rəngbərəng bəzəkli quşların cəh-cəhi, digər bir tərəfdən çobanların həvəs və iştahla çaldığı ney, tütək səsi aləmi bürüyərdi. Ney avazı səsləndikcə şirin-şirin otlayan qoyun-quzular başlarını yerdən qaldırıb həzin bayatılar çalan çobanın dövrəsinə toplanar, qulaqlarını tərpədib həvəsə gələrək oynaqlardılar.

Layla çaldım qəfil dindin nə yaman,
Sızıldadı yanıq könlüm ay aman.
Bir ah qopdu, ürəyimdən bu zaman,
Çal ey çoban tamarzıyıq laylaya!

Çətin anda olmayanda çörək-su,
Laylalardır nəğmələrin ulusu,
Çal, dinləyək ürəyimiz dolusu,
Çal ay qardaş, tamarzıyıq laylaya!

Layla səsi qərib durna harayı,
Sızıltısı ürəkləri arayır.
Nakam eşqi oda-közə qalayır,
Çal ay qardaş, tamarzıyıq laylaya!

Laylalarda dünənimiz yaşayır,
Sazım üstə dinənimiz yaşayır.
Qıratları minənimiz yaşayır,
Çal ay qardaş, tamarzıyıq laylaya!

Mənim elim igidlərin sevəcək,
Yuxusunda Koroğlusun görəcək.
Harayına Dürat, Qırat gələcək,
Çal ay qardaş, tamarzıyıq laylaya!

Layla dedim, Şuşa getdi əlimdən,
Bir ah çəkdim, nalə qopdu dilimdən.
Nətavanım ayrı düşdü elimdən,
Çal ay qardaş, tamarzıyıq laylaya!

Laylalarla uyumayır balamız,
Gündən-günə unudulur laylamız.
Nə zamandır, qəm üstəyik hamımız,
Çal ay qardaş, tamarzıyıq laylaya!

Çobanlar ney çalanda zümzüməli bulaqlar susar, axar çaylar yavaşıyar, buludlar şimşəklə yanar, qüssə və kədərdən qaralar, şaqqıltı və gurultu salaraq qara köynəklərini sıxar, aləmi göz yaşlarına qərq edərdilər. Durnalar hüzn saxlamış kimi qanad salar, səssiz-səmirsiz ötüb keçərdilər.

Arpaçayın ətəklərində sürü otaran çobanlar arasında boylu-buxunlu, uca qamətli, aslan yerişli, qartal baxışlı Xançoban adında bir çoban var idi. O, Şərur xanının sürüsünü otardığı üçün ona Xançoban ləqəbini vermişdilər.

Sara da bu düzlərdə sürüsünü otarardı. Cəldlikdə, çeviklikdə şücaətli oğlanlara bənzəyişi olsaydı da, onda nəciblik, incəlik, utancaqlıq öz əksini tapmışdı.

Sürülər qarşı-qarşıya gələndə qarışmasın deyə Saranın bir hay səsi ilə sürü onun dövrəsinə yığışardı.

Bahar fəslinin ən gözəl çağları idi. Neçə gün idi aramsız yağışlar yağır, ətrafı duman və çiskin bürüyürdü. Hava qaşqabaqlı olduğundan Günəşin üzü görünmürdü. Yerdən baş qaldıran otlar, gül-çiçəklər yağış suları altında sanki bir günahı varmış kimi tövbə qüsulları tökürdülər.

Belə bir havada Saranın otardığı sürü heç nəyin fərqinə varmadan şirin-şirin otlayır, hərdən bir qoyun və quzular həyəcanla mələşirdilər.

Birdən dinc otlayan sürüdə hürküşmə düşdü. Qoyun və quzuların bir dəstəsi Saranın dövrəsinə yığışdı. Sara fikirdən ayrılıb ətrafa göz gəzdirdi. Bir neçə canavar sürüyə təpildi. O, əlindəki çomağını şahə qaldırıb qoyunları parçalayan canavarlara tərəfə gəldi. Var gücü ilə qışqırdı. Bir neçə qoyun yerə sərilmişdi. Ac canavarlar sürüdəki digər qoyunları tutmağa çalışırdılar. Sara əlindəki dəyənəklə yırtıcıların harasından gəlirdi dəyənəklə döyəcləyirdi.

Havar səsinə qonşu sürülərin köpəkləri və çobanları özlərini yetirdilər. Əli dağdağan çomaqlı, aslan biləkli Xançobanı sürüyə basqın edən canavarlardan ikisini yerə sərdi. Digər canavarlar qaçıb canlarını bir təhər qurtardılar.

Sara çobana dönə-dönə minnətdarlıq etdi. Onun igidliyinə, cəsarətinə heyran qaldı. Öz aləmində ona vuruldu. Hissə qapılaraq həyəcanlı anlar keçirməyə başladı.

Xançobanın uca tərzlə danışığı onu düşüncələrdən ayırdı.

Gözəl, belə çiskinli, dumanlı hava da sürünün yayılmasının qarşısını almağa çalış! Xainlər, qorxaqlar

arxadan vurmağa fürsət axtardığı kimi bu yırtıcılar da belə bir dumanlı, çiskinlivaxtda çalışarlar ki, sürülərə təpilib heyvanları parçalasınlar. Bir də ki, atalar demişlər: Qurd dumanlı gün axtarar.

Saranın gözəlliyi, incə qaməti Xançobanı valeh etmişdi. Heç nədən çəkinməyən Xançoban elə bir başa saradan soruşdu:

Gözəl deyiklin varmı?

Saranın gözləmədiyi halda ona deyilən bu sözdən sifətində bir qızartı əmələ gəldi. Üzünü yana döndərib saçaqlı yun şalının ucunu gözlərinin altına qədər örtərək dedi:

Ey comərd, xeyr deyiklim yoxdur. Subay bir qızam, ata və anamın yeganə övladıyam.

Saranın mülayim bir tərzdə danışması çobanın ona qarşı məhəbbət hissini daha da gücləndirdi. Xançoban aram-aram özü haqqında danışmağa başladı. Mən Arpaçayın ucqarlarında yerləşən ucqar kəndlərin birindənəm. 10 yaşımdan xana çobanlıq edirəm. Yaşım iyirmi beşi ötsə də, subayam. Əhd-vəfada, sədaqətdə düz ilqarlısın axtarıram.

Çoban coşa-coşa danışdıqca Sara gözucu onun qamətinə, kamana bənzər dartılan qaşlarına, qara gözlərinə tamaşa edirdi. Saranın qəlbinə atəş düşdüyündən harada olduğunu, kimlə qarşı-qarşıya dayandığını unutmuşdu.

İndi o, özünü zorla ayaq üstə saxlayırdı. Yıxılmamaq üçün yerə dirəklənmiş çomağa söykənmişdi.

Xançoban Saraya nəsə olduğunu duyub soruşdu:

Bəlkə soyuqlamısınız. Sizə köməyim dəyə bilər.

Sara qızdırmalı adamlar kimi üzünü Xançobana səmt döndərib dedi:

Xeyir, xəstələnməmişəm, amma bir az halım xarablaşdı. Sonra onun dodaqlarından bir pıçıldı qopdu. Kaş sürünü bu səmtə gətirməyəydim, səni də görməyəydim! Məni büsbütün eşq bəlasına giriftar etdin...

Saranın vurğunu oldu Xançoban,
Buludlar çəkildi, könül duruldu.
Bu qızı görəndə ilk baxışda o,
Şərur gözəlinin vurğunu oldu.

Əllərin qaldırıb uca göylərə,
Şükürlər eyləyib tutdu niyyətin.
Xaliq doğrudan da ucasan, uca,
Gör harda yetişdi mənə qismətim.

O gündən vurğunu oldu Saranın,
Məcnuna dönərək oldu divanə.
Əsiri olmuşdu o, bu gözəlin,
Sara şam olmuşdu, o da pərvanə.

Çoban obasına qayıdan zaman,
Həvəsə o gəldi, qaynadı qanı.
Ayrıla bilmirdi o, bu aləmdən,
Qəlbində gəzdirdi, daim Saranı.

Hər şey unuduldu tamam yadından,
Təkcə Sara idi, ən ümdə dərdi.

Ayrıla bilmirdi məhəbbətindən,
Şirin yuxuda da hey sevişərdi.

Qəlbində bir qorxu yarandı onun,
Ərşə çəkilmişdi onun yuxusu.
Bu fani dünyaya etibar yoxdur,
Saranı itirmək vardır qorxusu.

Hərdən yuxusunu qatırdı yaman,
Diksinib ayılır ağır yuxudan.
Əsirdi yerində yarpaqlar kimi,
Yozmurdu yuxusun yazıq qorxudan.

Dərhal geyinərək çöllərə çıxar,
Sübh çağı zülmətin bağrın yarardı.
Daim dan yerinə gözlərin dikib,
Hardasa Saranı o, axtarardı.

Dan yeri sökülər, üfüqlər gülər,
Zülmət qorxusundan geri dönərdi.
Çöllər yuxusundan tez oyananda,
Çırpı külə dönər, tonqal sönərdi.

Sara sürüsünü qatıb qabağa,
Cığırlı yolları edərdi hədəf.
Onu sonsuz olan eşqi dartardı,
Ehmal addımlarla çobana tərəf.

Hal-əhval tutardı ondan Xançoban,
Doymazdı hüsnünə baxdığı zaman.

Bəlaya salmışdı onu məhəbbət,
Vurulmuşdu onun hüsnünə yaman.

Yanar eşq içində olan Xançoban,
Neylə məhəbbətin elə yayardı.
Oğrun baxışlarla o anda Sara,
Çobanın eşqini oğurlayardı.

Aləmə düşərdi neyin sədası,
Həyat canlanardı sonsuz çöllərdə.
Aşiqlə məşuqun saf məhbbəti,
Gəzdi soraq-soraq bütün ellərdə.

Onlar bütün günü sevişərdilər,
Baxışla bəllədər diləklərini.
Sonsuz səxavətlə bəxş etmişdilər,
Onlar bir-birinə ürəklərini.

Saranın atası tutmuşdu xəbər,
Qızının çobanla sevişdiyini.
Hələlik bu sirri gizli saxlayıb,
Qızına demirdi eşitdiyini.

Arada həm hörmət, həm pərdə vardı,
Qəlbində dəfn etdi ürək sözünü.
Təmkinlik göstərib səbr eylədi.
Açmaq istəmirdi, qızın üzünü.

Ata məsləhəti

Qızın əmisinin bir oğlu vardı,
Bütün il uzunu bekar qalardı.
Harda olsaydı şadlıq, toy-düyün,
Sərxoşluq eyləyib dava salardı.

Düşmüşdü hörmətdən ata-anası,
Yalanlar yağırdı hər bir sözündən.
Əlində çox naqis işlər tuturdu,
Tamam o düşmüşdü elin gözündən.

Ona məhəbbətin bildirən zaman,
Nifrət, kin yarandı, o andan bəri.
Onunla hərdən bir rastlaşan zaman,
Saranı basardı xəcalət təri.

Saranın adını o, çəkən zaman,
Bu qız aləmində yasa batardı.
Zorla verilsəydi əmioğlusuna,
İntihar edərək özün asardı.

Əmisi oğlunu qəti sevmirdi,
Kədər bürüyürdü onun şənliyi.
Vəfasız nə bilir məhəbbət nədir?!
Çünki alçatmışdı qeyrət, mənliyin.

Eşqin bəlasına çalış ki, düşmə,
Hər sevən çəkənməz onun tabını.

Sorğu eyləmişdilər ondan neçə yol,
Sara söyləmişdi, yox cavabını.

Saranın istəyi bambaşqa idi,
Qəzəbin səbrlə daim udurdu.
Əmisi oğluna yar olmaqdansa,
Ölümü ondan da üstün tuturdu.

Atası yanına çağırdı qızın,
Dedi mənim quzum, sevimli balam.
Var sənə deməyə bir məsləhətim,
Nəsihət eyləyib mən başa salam.

Ey mənim yeganə varlığım, qızım,
Mən sənin həm atan, anan olmuşam.
Yaşa dolanadək nazını çəkib,
Şam təkin əriyib yanan olmuşam.

Ömür başa çatır, mən qocalmışam,
Bir gün köçəcəyəm gözəl həyatdan.
Xatirə qalacaq məzar, baş daşı,
Tamam çıxacağam, ömürlük yaddan.

Dedi bu dünyadan köçməzdən qabaq,
İstərsən özümü çox xoşbəxt sayım.
Daim bu həyatda siz olun xoşbəxt,
Əminin oğluna mən nişanlayım.

Ata sözün deyib dayandı sakit,
O, çəkə bilmirdi hicran tabını.

Təmkinlə gözlədi, belə nə qədər,
Almadı qızından hə cavabını.

Sara həya etdi, öz atasından,
Doğma əmioğluya vardı, onda kin.
Bədbəxt olmasına razı qalardı,
Etmək istəmirdi atasın qəmgin.

Qüssəyə düşərək narahat oldu,
Niyə bədbəxt olsun, o, qana-qana.
Axı sidq-ürəklə o vurulmuşdu,
Onu eşqə salan bu Xançobana.

Sıxıldı ürəyi, kədərlə dedi,
Açdı ürəyini, o, aram-aram.
Baş tutmaz qətiyyən belə məhəbbət,
Onunla heç zaman xoşbəxt olmaram.

El-oba içində gözlərdən düşən,
Haqq yolda yolundan mən qalanları.
Dilinə bir kəlmə düz söz gəlməyib,
Qəti inanmaram heç yalanlara.

Ata, puç eyləmə məhəbbətimi,
Könlümə yatanı yalnız istərdim.
Salma məni belə yaman bəlaya,
Kifayət eyləyər mənə öz dərdim.

Sevənə vermişəm, mən öz könlümü,
Məhəbbət pay deyil, bəxşiş də deyil.

Ağlımla duyuram nələr olacaq,
Mənə belə sevda heç verməz xeyir.

Ata, söyləməyə mən utanıram,
Təmiz məhəbbətdən başlayar inam.
İstəməm kor olsun saf məhəbbətim,
Qiyamətə qədər əzabla yanam.

Diz çöküb qarşında mən yalvarıram,
Yetiməm qəlbimə gəl vurma yara.
Sənin bu dünyada bircə qızın var,
Onu öz əlinlə salma odlara.

Qeyrətli bir kəsə könül vermişəm,
Onu çox sevirəm mən yana-yana.
Sözündə dəyanət, eşqinə sadiq,
Elin sevimli bir Xançobana.

Ata dediyinə çox oldu peşman,
Keçmədi bir daha o həddi-səddi.
Qızının halına yandı, nə qədər,
Silib göz yaşların üzr istədi.

Söylədi yeganə varlığım mənim,
Qoymaram qalasan sən qara günə.
Sözündə anladım, mən istəyini,
Bir daha dəymərəm sənin könlünə.

Anan çox nisgillə tapşırdı canın,
Mənə and içdirdi müqəddəs dinə.

Dedi əvəzində onu əzizlə,
Qəti heç bir zaman dəymə-xətrinə.

Gözümün işığı, ey nazlı qızım,
Göylərdən ucasan ağırlığınla.
Dürrüdən, yaqutdan sən qiymətlisən,
Dünyada xoşbəxtəm bil varlığınla.

Bir az kobudluğa mən yol vermişəm,
Ehtiyat etməli qəlbi kövrəkdən.
Məhəbbət incidir zor qəbul etməz,
Kimi sevirsənsə, sən sev ürəkdən.

Şüşə kimi olur insanın qəlbi,
Çalış ki, güzgü tək o parıldasın.
Gərək ehtiyatlı olasan gərək,
Əlindən düşərək heç qırılmasın.

Könül sınsa belə yamaq götürməz,
Namərd tora salsa, bil ki, ötürməz.
Xeyirxah əməllər qoyub gedənlər,
Yaşar ürəklərdə əbədi ölməz.

Xançobanla Saranın görüşü

Yığıb ətəyinə zülmət pərdəsin,
Dan yeri söküldü, açıldı səhər.
Dünənki sorğudan o, qəmli idi,
Qalxdı yatağından yorğun birtəhər.

Yedi sübh yeməyin bir az həvəssiz,
Qoruyurdu özün o pis üzlərdən.
Muğanlı çöllərdə otarmaq üçün,
Sürünü qaldırdı, kaha-küzlərdən

Saf-çürük edirdi, o, keçənləri,
Yadına salırdı o ötənləri.
Dünyada özündən xoşbəxt sayırdı,
Saf bir məhəbbət o sevənləri.

Söylədi ilahi nədir günahım?!.
Duyuram həyatda yaxşını-pisi.
Əzəldən taleyim kor oldu mənim,
Görmədim doyunca ana sevgisi.

Barı məhəbbətim qoy kor olmasın,
Nur, şəfəq çilənsin, getdiyim yolum.
Könlümə yatana verim qəlbimi,
Bu fani dünyada mən xoşbəxt olum.

Qaldırıb əllərin uca göylərə,
Gözə görünməzdən istədi kömək.

Taleyin yazdığın heç pozmaq olmaz,
Xaliq qara yazsa, bədbəxtəm demək.

Sürü şirin-şirin hey otladıqca,
Xəyala dalaraq dolandı düzü.
Duman örpəyini yığıb gedəndə,
Birdən Xançobana sataşdı gözü.

Sevincək bir anda yaxına gəldi,
Bu qoçaq oğlanı o, salamladı.
Qara fikirləri atdı bir yana,
Xəyal aləmini o tamamladı.

Süzdü dönə-dönə o, Xançobanı,
Oxunu atmağa yayı quruldu.
Görkəmi aslana, pələngə bənzər,
Ən inci hislərlə ona vuruldu.

Misli-bərabəri olmayan gözəl,
Bəlaya salmışdı, belə çoxunu.
Kamana döndərib o, qaşlarını,
Atdı dönə-dönə sevgi oxunu.

Doyunca seyr etdi, çoban Saranı,
Tamaşa eylədi o, heyran-heyran.
Tanrı bəxş etdiyi qismətinə bax,
Təbiət yetirmiş bax belə ceyran.

Nitqi tutulmuşdu sanki çobanın,
Heç vaxt görməmişdi gözəl beləsin.

Dəli vurğunluğun anlatmaq üçün,
Haradan başlasın, hardan söyləsin.

Sara susduğunu görüb çobanın,
Başını qaldırıb bir az dikəldi.
Oxudu qəlbindən lal duyğuları,
Naz ilə yeriyib qabağa gəldi.

Yapışdı qolundan o, Xançobanın,
Eşqi olacaqdır, onun gərəyi.
Qəlbindən bir anda toz-duman qopdu,
Quş təkin çırpındı onun ürəyi.

Aranda qəribə aləm yarandı,
Atdı qədəmlərin yeni bir bahar.
Sara Xançobana verdi ürəyin,
Dedi insafa gəl, etmə məni xar.

Çoban gülümsəyib sevincək dedi,
Mənim əhd ilqarım daim dönməzdir.
Yalnız sənə olan saf məhəbbətim,
Günəş şəfəqi tək daim sönməzdir.

Səni sevəcəyəm qiyamətə tək,
Geri çəkiləmərəm mən saf niyyətimdən.
Boran bağlasa da, yolları tamam,
Qətiyyən dönmərəm məhəbbətimdən.

Xançoban Saranın tutub əlindən,
Saydı bu dünyada xoşbəxt özünü.

Ona min könüllə vurulduğunu,
Ürək yanğısı ilə dedi sözünü.

Dedi səadətdir, qismətim olsan,
Belə bir gözəlin vurğunu olmaq.
Qəlbimdə toy-bayram, çölündə həsrət,
Ahu baxışından hey ilham almaq.

Bahara bənzəyir, bil mənim eşqim,
Qəlbindən keçəni söylədi aram.
Tufanlar gurlayıb dünya qopsa da,
Səni ölsəm belə mən unutmaram.

Sara gözlərindən axıdırdı yaş,
Damcılar şeh idi, yanaqlar çiçək.
Sonaya dönmüşdü, olmuşdu xoşbəxt,
Qəlbi çırpınırdı onun sevincək.

Anlatdı çobana vurğunluğunu,
Yox oldu qəlbindən qəm, qüssə, kədər.
Mən necə anladım vurğunluğumu,
Deyim sevəcəyəm ölənə qədər.

Qoy Tanrı daima bizə yar olsun,
Əzəldən agahdır, hər sirrimizdən.
Yalvaraq ürəkdən mərhəmət etsin,
Barı ayırmasın bir-birimizdən.

Beləcə sevdilər bir-birlərini,
Günlər vərəq-vərəq beləcə ötdü.

Bir busə bəxş etdi sevgilisinə,
Saranın yanağın od təkin pörtdü.

Muğanlı çöllərdə aləm dəyişdi,
Gül-çiçək qaldırdı başını yerdən.
Burda təbiət də sevincək idi,
Quşlar oxuyurdu nəğməsin hərdən.

Xançobanla anası

Qaytardı obaya çoban sürünü,
Sanki görkəmində o dəli idi.
Kədərə düşmüşdü o, danışmırdı,
Onun hər baxışı qüssəli idi.

Şamını yemədi, nə də danışdı,
Dərilmiş gül təkin saralıb soldu.
Gözləri neçə yol boşalıb doldu,
Onun anası da yaman narahat oldu.

Oğlunun yanında əyləşdi ana,
Söylə de bilim sənin dərdini.
Min çarə taparam, çarə eylərəm,
Ancaq mən bilərəm, sənin dərdini.

Xançoban bir azca tapdı rahatlıq,
Baxdı anasının qəmli üzünə.
Oğlunda həyata inam yaratdı,
O, ziynət gətirdi hər bir sözünə.

Dedi: ey müqəddəs vəfalı anam,
Mənə istəklisən onu bilirəm.
Saranın eşqiylə divanəyəm mən,
Hədsiz məhəbbətlə onu sevirəm.

Necə mən gizlədim, vurulumşam mən,
Mənə qismət verib taleyin əli.
Eşq bəlasına düşmüşəm yaman,
Məcnuna dönərək olmuşam dəli.

Rast gəldim çöllərdə bir ahuya mən,
Ona ilk baxışda olmuşam heyran.
Söz tapa bilmirəm, təsvir eyləyim,
Gül-çiçək içində sanki bir ceyran.

Ana tumarlayıb oğlunun başın,
Sevincək axıtdı, gözünün yaşın.
Dedi yığışaraq elçi gedərik,
Özünü çox üzmə, sağ olsun başın.

Söylədi ərinə oğlunun dərdin,
Oğlun dərdə düşüb kədərdən, ahdan.
Bircə oğlumuz var, qoy xoşbəxt olsun,
Elçi getməliyik yalnız sabahdan.

Dinlədi arvadın ağsaqqal ata,
Bu sövda baş tutsun Allah çaş dedi.
Mən poza bilmərəm tale yazısın,
Sabah elçiliyə hazırlaş dedi.

Elçilik

Ağsaqqal, ağbirçək dəstə bağlayıb,
Elçilik etməyə düşdülər yola.
Ana, ata üçün çətin olsa da,
Xoşbəxt olsun belə eşqində bala.

Onlar izn alıb evə girdilər,
Durdular üz-üzə qoşa yanaşı.
Elçilər olduğunu onların bilib,
Xoş gəldin eylədi qızın atası.

Oğlanın atası mətləbə keçdi,
İstədi sözünü bir başa deyə.
Fikrini cəmləyib dedi aramla,
Gəlmişəm qızına biz elçiliyə.

Saranın atası susub durmuşdu,
Onu bürümüşdü, həm kədər, həm qəm.
Fikrini aramla, səbrlə dedi,
Tale yazısına nə deyə billəm.

Axı, elmizin bir adəti var,
Bir az səbr eyləyin soruşum özüm.
Onun istəyi ilə olsun bu şənlik,
Sara razıdırsa, yoxumdur sözüm!..

Qoy xoşbəxt olsunlar, qızımla balan,
Dilində söyləsin razıyam gərək.

Sevirəm söyləsə o, Xançobanı,
Mən də diləyərəm olsun mübarək.

Saranın ağbirçək bibisi vardı,
Nüfuz qazanmışdı şərəf-şanına.
Mülayim bir səslə qardaşı qızın.
Çağırdı Saranı bir baş yanına.

Sara həyəcanla gəldi yanına,
Heç çəkə bilmirdi o, eşqin tabını.
Dedi: qızım sənə elçilər gəlib,
Sən mənə söylə "hə", "yox" cavabını.

Sara həya edib qızardı birdən,
Onlar xeyli baxdı bir-birisinə.
Sevirəm söyləmək çox çətin imiş,
Utandı "hə" desin o bibisinə.

Onun baxışından çox duyulurdu,
Kaman tək dartılıb durulduğunu.
Ürəyi əmr etdi, söylə çəkinmə,
Desin Xançobana vurulduğunu.

Utana-atana o, dilə gəldi,
Məni çox sevirsən bibi bilirəm.
Anam tək əzizsən hər zaman mənə,
Dedi sidq ürəklə onu sevirəm.

Könlümü vermişəm, mən çoxdan ona,
Duymuşam mən onda hər etibarı.

O, ilk görüşündə, Şərur çölündə,
Bağlayıb mənimlə əhdi-ilqarı.

Yalvarıram sizə razılıq edin,
Nəvaziş göstərin o elçilərə.
Xoşbəxt olmağımı istəyən kəslər,
Mübarək söyləsin xoşluqla hərə.

Saranın atası verdi razılıq,
Qoy xoşbəxt olsunlar, dedi o sözün.
Sevinc hissi ilə böyük inamla,
Dedi süfrəmizə şirnilər düzün,

Hamı öz ağzını eylədi şirin,
Şadlıq eylədilər qız obasında.
Əsli və Kərəmdən dastan söyləndi,
Çalıb oynadılar saz havasında.

Saranın sevinci sığmırdı göyə,
Məhəbbət var idi, hər bir işində.
Hamını özünə valeh edirdi.
Tərlana bənzərdi, o yerişində.

Səhər yuxusunda erkən oyandı,
Geyinib-düzəndi, bir az darandı.
Nişan taxılmışdı, ona bu axşam,
Dünyada ən xoşbəxt özünü sandı.

Sübh çağı sürünü yaydı çöllərə,
Yalqız otarırdı, sürünü özü.

Hərdən boylanırdı, çöllərə tərəf,
Hərdən axtarırdı çobanı gözü.

Xançoban göründü öz sürüsüylə,
Yaxına gəlirdi, o da sevincək.
Ürəyi quş kimi hey çırpınırdı,
Tutmuşdu əlində bir dəstə çiçək.

Bir göz qırpımında qarşılaşdılar,
Mübarək söylədi çoban dilindən.
Gül-çiçək dəstəsin verib Saraya,
Odlu məhəbbətlə öpdü əlindən.

Dedi mən xoşbəxtəm öz taleyimdən,
Həsrət duyğuların kənara atdım.
Böyük Yaradana şükr eyləyirəm,
O, kömək eylədi arzuma çatdım.

Saranın sevinci aşıb daşırdı,
Tez-tez döyünürdü sinədə ürək.
Könlündən keçəni söylədi yavaş,
Sevgi aləmində dözümlü gərək.

Sara Xançobanla axşama qədər,
Ülvi məhəbbətdən danışardılar.
Biri şam olmuşdu, biri pərvanə,
Məhəbbət yolunda hey alışdılar.

Xan ceyran ovunda

Ovçu insaf eylə, keçmə bu düzdən
(S.Vurğun)

(Rəvayətə görə bir zamanlar bu ormanlarda ceyran, cüyür və maral olarmış. Lakin zaman-zaman iqlimin nisbətən sərtləşməsi, ovçuların namərdliyi nəticəsində bu heyvanların nəsli kəsilmişdir)

Bir gün xan çıxmışdı həvəslə ova,
Daim itirmişdi abırı, arı.
Rastına nə keçsə, o, ovlayırdı,
Qana boyayırdı o ceyranları.

Neçə ana ceyran o, ovlamışdı,
Qan-tər içindəydi büsbütün özü.
Hökmündə inadkar, amansız idi,
Doymaq bilməyirdi qətiyyən gözü.

Düşmüşdü çox yamana, acgöz həvəsə,
Neçə yol dolaşdı o, çölü-düzü.
Bir sürü otaran qızla rastlaşdı,
Az qaldı burada lap çaşsın özü.

Atın cilovunu çəkib dayandı,
Bir müddət eylədi, qıza tamaşa.
Yox oldu ov hissi onun qəlbindən,
Az qaldı yəhərin üstündən aşa.

Sevinə-sevinə dedi özünə,
Bəlkə bu qurulan mənə bir tordur.
Ovladım çöllərdə mən ceyranımı,
Mənimçün bu ceyran əsil bir ovdur.

Hansı mahaldansan soruşdu qızdan?
Söylə o yerləri bəlkə tanıdım!..
Mənim var-dövlətim, adım- sanım var,
Mahalın xanıyam, Xeybərdir adım.

Gəl səni eyləyim özümə hərəm,
Xanımlar xanımı səni eylərəm.
İpəyə, qumaşa bürüyüb səni,
Daim sənə belə mən can söylərəm.

Yaqut üzüklərdən tax barmağına,
Urəyin istəsə belə hər nələr.
Cəvahir sırğalar aləm yaradar,
Bəzəyər sinəni zümrüd sərmələr.

Yeddinci xanımım olarsan mənim,
Sarayda olarsan onda baş hərəm.
Geriyə dönərək elə mən bu gün,
Sizin evinizə elçi göndərrəm.

İtirmə bəxtini, xoşbəxtliyini,
Sənin taleyinin doğub Günəşi.
Xoşbəxtlik hər zaman bil qismət olmaz,
Söndürmə əlinlə sən bu atəşi.

Bəxtinə gün doğub eyləmə inad,
Öz xoşuyla gəlib bil firəvanlıq.
Xanımlıq edərək, kef görəcəksən,
Göstərsən sən mənə bil mehribanlıq.

Sonsuz məhəbbətlə sevəsən məni,
Vurarsan mənə nazilə göz-qaş.
Onda süd gölündə daim üzərsən,
Sənə qulluq edər neçə qarabaş.

Di söylə cavabı, çox inad etmə,
Çırpınır ürəyim dayananmıram.
Sənin gözəlliyin kül edib məni,
Mən közə dönsəm də, hələ yanmıram.

Axı, mərhəmət var, hər bir sözümdə,
Düşün taleyini, öz qeydinə qal.
Ömrün çürüyəcək alaçıqlarda,
Ağır güzəranı bir yadına sal.

Bir sözüm heç zaman iki olmayıb,
Tərslik edənlərlə olmayıb aram.
Zorla nail ollam, hər bir istəyə,
Bu qədər Allaha mən yalvamaram.

Gəl cin atına mindirmə məni,
Susma sən bu qədər, inadını at.
Razılıq verməsən sən öz xoşunla,
Zor ilə edərəm özümə arvad.

Sara örtüyünü çəkib üzünə,
Deyilən sözlərə gətirirdi tab.
Bu sonsuz çöllərdə çarəsiz idi,
Bilmədi qaytarsın, ona nə cavab.

Susaraq bir anlıq qüssə eylədi,
Sanki ürəyini ağrılar dəldi.
Əsl bir cəsarət yarandı onda,
İlahi göylərdən bir qüvvə gəldi.

Dedi mən dinlədim, hər bir sözünü,
Həddini aşaraq, bəlkə qanmırsan.
Abır-həya belə çox yaxşı şeydir,
Atam yaşındasan heç utanmırsan?!.

Qızın yaşındaym, gəl həya eylə,
Kədər, qəm qatırsan sən şənliyimə.
Səndəki məhəbbət xoşbəxtlik deyil,
Sığdıra bilmirəm heç mənliyimə.

Hərdən rastlaşaram sən kimilərə,
Səni mən özümə ata sanıram.
Xəcalət çəkirəm sənin yerinə,
Sənin əvəzinə mən çox utanıram.

Səndə məhəbbət də, eşq də saxtadır,
Əgər zor işlətsən, yoxdur hünərin.
Belə sevda sənə xeyir gətirməz,
Dediyim sözlərin mənası dərin.

Dərin məna gəzir, bu deyimlərdə,
Qaşıqla su töksən heç quyu dolmaz.
Tikan qucaqlasa məsum bir gülü,
Zəhərli tikanda məhəbbət olmaz.

Çıx get öz yolunla dinməz-söyləməz,
Dəymə bir kimsənin heç vaxt qəlbinə.
Kişisən qadınla gəl cəhd eyləmə,
Qoyma bir kimsəni sən qara günə.

Əqrəbdə, ilanda məhəbbət olmaz,
Onlar daim belə intiqam alar.
Bir kəs həştadında öyrənsə zurna,
O kəs, o zurnanı gorunda çalar.

Həyat qurulubdur məhəbbət üstə,
Hər kəsin qəlbində öz sevgisi var.
Taylı-tayın tapıb sevib-sevilsə,
O kəslər olarlar, xoşbəxt, bəxtiyar.

Zor ilə bir insan heç xoşbəxt olmaz,
Düşər ömrü boyu o qara günə.
Payız bülbülünün sövdası kimi,
Bədbəxtlik gətirər o taleyinə.

Acıqla dinlədi xan bu sözləri,
Qəzəblə alışdı, onun gözləri.
Dedi: sən qarşımda nə danışırsan,
Ağzından süd gələn çoçuq sərsəri.

Mənim olacaqsan, uzun danışma!..
Ağılla başından bu sövdanı at.
Xan öz istəyini geri götürməz,
Səni edəcəyəm zorla mən arvad.

Qəzəblə bağırdı qızın üstünə,
Dedi, get hazırlaş, burada durma.
Daim zillət çəkən yoxsul bir qızsan,
Bəxtinə şükr et daha qudurma.

Məni həddən artıq qəzəbləndirmə,
Lənətlər qoy olsun sənin zatına.
Deyinə-deyinə xan yola düşdü,
Hirslə qamçı çaldı, o ağ atına.

Sara danışanda xan geri dönüb,
Çəkib cilovunu saxladı atın.
Harınlıq edərək, o qudurmuşdu,
Tamam itirmişdi mənəviyyatın.

Dedi qəzəbli xan, gəl insaf eylə,
Mənim də qəlbimdə məhəbbətim var.
Gileylik eyləsəm, mən öz Tanrıma,
Bil ki, mənim ahım səni tez tutar.

Elçilik ediblər mənə qabaqdan,
Sənə söyləməyə eyləyirəm ar.
Könlümü vermişəm, mən çoxdan ona,
Xançoban adında bir nişanlım var.

Sevmişik beləcə bir-birimizi,
Bahar suları tək biz çağlamışıq.
Sadiq qalacağıq biz eşqimizə,
Birlikdə əhd-ilqar biz bağlamışıq.

Mən necə xəyanət eyləyim ona,
Xəcalətli olar, o sevgili yar.
Daşlara çalsam mən məhəbbətimi,
Tanrının qəzəbi bil məni tutar.

Aşiqi olmuşam mən Xançobanın,
Eşqin ilə ucaldıb o, ad-sanını.
Onun yolunda mən qurban eylərəm,
Əgər lazım gəlsə, mən öz canımı.

Xan elçi göndərdi

Obaya qayıtdı, Sara həmin gün,
Onu bürümüşdü tamam qəm, kədər.
Çarə axtarırdı düşüncələrlə,
Ömrünü o, duydu, mənasız hədər.

Atası qızını gördü, qüssəli,
Biçildi boğazı, şamın yemədi.
Qızından soruşdu nə olub sənə?
Nələr olduğunu Sara demədi.

Dünənki söhbəti gizli saxladı,
Xəlbətə çəkilib hərdən ağladı.
Dünənki əhvalat yanar köz təkin,
Onun ürəyini tamam dağladı.

Uzaqdan göründü, bir dəstə atlı,
Onlar çapırdılar, obaya sarı.
Əllərdə var idi odlu silahlar,
Onlar itirmişdi namusu, arı.

Xanın elçiləri olan bu kəslər,
Sanki bənzəyirdi bir yolkəsənə.
Bağıra-bağıra gəlib irəli,
Onlar danışırdı hey həlpəsənə.

Əlində silahı lopabığ elçi,
Qaldırdı silahın irəli qəsdən.
Qəti çəkinmədən o, saymazyana,
Saranın atasın çağırdı bərkdən.

Saranın atası irəli gəlib,
Onları çox soyuq o qarşıladı.
Yarandı düşmənə onda kin, qəzəb,
Onlar qətiyyən məhəl qoymadı.

Lopabığ yasovul, gah da coşurdu,
Mərhəmət hissini tamam ataraq.
Hərbə-zorba ilə hey-hey deyirdi,
Gəlmişik qızını xana aparaq.

Xanımız üç gündür, toy-büsat qurub,
Hamı deyib gülür, şənlik eyləyir.
İstəyə, arzuya o çatmaq üçün,
Həsrətlə qızını orda gözləyir.

Bizi elçi kimi xan göndəribdir,
Qıza başlıq verib biz almalıyıq.
Xan da intizarla gözləyir yolun,
Saranı indicə aparmalıyıq.

Saranın atası pərişan oldu,
Namusda, qeyrətdə adlı-sanlıdır.
Dedi əbəs yerə siz gəlmisiniz,
Qızım özgəsinə o nişanlıdır.

Onlar bir-birini sevib əzəldən,
Eşq-məhəbbəti aləmə yayılıb.
Mən də dönük çıxsam verdiyim vədə,
Sizə də, mənə də çox olar ayıb.

Xana ərə versəm mən bu qızımı,
El-oba içində rüsvay olaram.
İtirrəm qeyrəti, həm mənliyimi,
Özümü əbədi gözdən salaram.

Gedin siz söyləyin, möhtərəm xana,
Mahalda gözəl qız, nə qədər çoxdur.
Deyin bir qızı var, o nişanlıdır,
Ona verməli bir qızım yoxdur.

Qızım yeniyetmə, xansa qocadır,
Günahı olmayan məsum insandır.
Qudurğan kəslərdə olmaz məhəbbət,
Onun haqq dediyi yalandır.

Mən verə bilmərəm qızımı ona,
Bizə gərək deyil nə saray, nə taxt.
Onun arzuları kor olacaqsa,
Qoy olsun həyatda daima bədbəxt.

Qızın ürəyində arzuları var,
Hər bahar fəslində o çiçək açar.
Azad quş qəfəsdə yaşaya bilməz,
Saray Cənnət olsa oradan qaçar.

İnsan arzularla daim ucalar,
Zirvələr büsbütün tamam olar qar.
Zor ilə məhəbbət qazanmaq olmaz,
Onun da qəlbində öz istəyi var.

Xanın elçiləri qəzəbə gəldi,
Şallaqla çırpdılar onun başına.
Yarıldı baş-gözü qanı töküldü,
Sanki göylər uçub yerə töküldü.

Zarıya-zarıya bərkdən inlədi,
Az qaldı kəsilsin onun nəfəsi.
Alqana qərq oldu günahsız qoca,
Obanı götürdü ah-fəryad səsi.

Zalımlar öldürdü burda qocanı,
Ömrün payızında onu dağladı.
Mələklər dözmədi bu müsibətə,
Göylər guruldadı, yerlər ağladı.

Saranın dayısı qabağa gəlib,
Hönkürtü salaraq gözləri doldu.
İstədi qatildən alsın intiqam,
O da güllələrin oldu qurbanı.

Al qanlar sel kimi axdı obada,
Qəddarlıq eylədi, ara qatanlar.
Məsum insanları qətlə yetirdi,
Vicdanın qızıla, pula satanlar.

Canını götürüb qaçmaq istədi,
Sara tez-tələsik mindi atına.
Atını çapdıqca tökdü göz yaşı,
O, ümid bağladı etiqatına.

Elçilər Saranın qaçdığın görüb,
Onun arxasınca saldılar çapar.
Köməyi yox idi, tənha çöllərdə,
Sara qışqıraraq, çəkirdi havar.

Ata kəmənd atıb tez saxladılar,
Onu dartışdırıb yerə saldılar.
Namərdlik eylədi, xanın elçiləri,
Saranı bu yolla əsir aldılar.

Qaça bilməz idi Sara oradan,
Onun kəsmişdilər sağın-solunu.
Sara gözlərindən yaş tökə-tökə,
Zəncirə sarıdılar, həm əl-qolunu.

Onu mindirdilər atın tərkinə,
Ondan etmədilər, bir daha sorğu.
Atlara minərək tələm-tələsik,
Düşdülər getməyə saraya doğru.

Sara heç dinmirdi, yasa batmışdı,
Üzündə, gözündə yox idi dirrik.
Dünyanı xəlq edən böyük Tanrıya,
Öz qara bəxtindən etdi gileylik.

Dedi öz-özünə nədir günahım?!.
Məni zülm içinə, əzaba atdın.
Bu fani dünyada bədbəxt olmağa,
Nə üçün sən məni gözəl yaratdın?!

Bəlkə, çirkin olub xoşbəxt olardım,
Başqa kəslər kimi ömür sürərdim.
Gəncliyim kül olub getməzdi hədər,
Mənasız dünyada ağ gün görərdim.

Xan kef-damaqda

Xan yaman qızmışdı, harınlamışdı,
Kef-damaq içində toy vurdururdu.
Yetmişdən çox artıq olsaydı yaşı,
Həddini aşaraq, çox qudurmuşdu.

Düşmüşdü büsbütün elin gözündən,
Hamı çəkinirdi, ondan çox zaman.
Yetib-yetməyənə əzab verirdi,
Aman istəyənə tuturdu divan.

İblis əyləşmişdi onun qəlbində,
Qətiyyən yox idi, onda mərhəmət.
Onu görən kəslər ondan qaçırdı,
Gözə görünmürdü bir kəs, bir əhəd.

Saranın yolunu xan gözləyirdi,
Baxırdı saraydan dilsiz yollara.
Lap qoca çağında eşqə düşmüşdü,
Yadından çıxmırdı, qətiyyən Sara.

Hamı şənlik edib yeyib-içirdi,
Sərxoş olanlarda, yox idi təpər.
Elçilər də belə gəlib çıxmırdı,
Yox idi, Saradan nə xəbər-ətər.

Muştuluq gətirdi xana xidmətçi,
Xan qalxıb ayağa yaman sevindi.
Dedi çalğıçılar keçsin qabağa,
Toyla qarşılayın Saranı indi.

Çıxdı qarşısına o elçilərin,
Əl-qolun zəncirdə gördü Saranı.
Hamı dövrəsinə aldı gəlini,
Hay-haray bürüdü burada hər yanı.

Açdılar Saranın həm əl-qolunu,
O, öz aləmində pərişan idi.
Qəlbi dəniz kimi coşurdu onun,
Dünya onun üçün tamam qan idi.

Vağzalı havası çalındı birdən,
Əl-ayaq açaraq süzürdü hamı.
Alqışlar bürüdü bütün hər yanı,
Yengələr tutmuşdu əlində şamı.

Sara yas içində qüssə çəkirdi,
Onun gözləri də yaşla dolmuşdu.
Qara yazılmışdı, onun taleyi,
Ömrün bahar çağı bədbəxt olmuşdu.

Nə dinir, nə gülür, nə danışırdı,
Gözləri heç nəyi görmürdü onun.
Belə xoşbəxtliyin nə mənası var?!
Mənasız o, gördü dünyanın sonun.

Xan şirin dilini tez salıb işə,
Hissini udaraq, qəzəbin yedi.
Hər bir qədəminə bir qızıl atıb,
Mənim sarayıma xoş gəldin dedi.

Dedi mən könlümlə sənə vurulmuşam,
Ahuya bənzəyən o gözlərinə.
Məcnuna dönərək divanə ollam,
Sənin şirin-şirin o sözlərinə.

Sara bircə kəlmə vermədi cavab,
Kamana dönmüşdü alnında qaşlar.
Girdə sifətində gilələnirdi,
Gözündən süzülən o qanlı yaşlar.

Bahar günəşinə bənzəyirdi o,
Kəsmişdi qabağın qara bulutlar.
Sanki ormanlarda, o tənha idi,
Dövrəyə almışdı, yırtıcı qurdlar.

Çarəsi yox idi, o etsin əlac,
Yorğun adamlar tək bəxti yatmışdı.
Tufanlı dəryada üzən gəmisi,
Qayalara dəyib onun batmışdı.

Onun harayına gələn olmazdı,
Məcnun intizarlı, o Leyli idi.
Belə paylanmışdı, onun qisməti,
Alın yazısından gileyli idi.

Xan yenə qürurla inamla dedi,
Xanım olacaqsan sən bu sarayda.
Qüssəyə, kədərə salma özünü,
Etiraz da etsən yoxdur heç fayda.

Düşün ki, sən mənim öz əlimdəsən,
Sənə məhəbbətim nə qədər çoxdur.
Barı istəyinlə sən razılıq ver,
Buradan qaçmağa heç yolun yoxdur.

Dəbdəbə içində yaşayacaqsan,
Bürünəcəksən belə ipək, qumaşa.
Artacaq daima səndə gözəllik,
Mələklər edəcək sənə tamaşa.













Saranın xana cavabı

Sara dilə gəlib söylədi xana,
Mənə zülm eyləyib bədbəxt eylədin.
Bu cür xoşbəxtliyin yoxdur faydası,
Mənasız-mənasız çox söz söylədin.

Eşqimi vermişəm mən başqasına,
Alçaqlıq edənə, bir söz demirəm.
Qızıl bağışlasan lap dağlar qədər,
Bircə onu bil ki, səni sevmirəm.

Məhəbbət elə bir canlı aləmdir,
Satılmaz heç zaman qızıla, pula.
Nə saray, dəbdəbə verməz xoşbəxtlik,
O, eşq aləmində çevrilər qula.

Daşlara çevrilib bil məhəbbətim,
Sənə xanım olmaq yoxdur niyyətim.
Çatmaq istəyirsən öz istəyinə,
Gələcək bu sənə həm ağır-çətin.

Dünyada nə qədər belə zalımsan,
Artırdın həyatda mənim qəmimi.
Qarşımda ən qəddar cəllada döndün,
Öldürdün atamı, həm də əmimi.

Hansı məhəbbətdən sən dəm vurursan,
Gəl işə sən salma zəhərli dili.

Dediyim mənanı dərk et, bir düşün,
Sevərmi, bir ürək zalım qatili.

Bu el məsəlidir çəkib atalar,
Zalımda nə mürvət, heç insaf olmaz.
Nə qədər söyləsə dilində yar-yar,
İlanda, çayanda məhəbbət olmaz.

Sara nə söyləsə, fayda olmadı,
Danışa-danışa batırdı səsi.
Bu yolla eşqimi qoruyam gərək,
Özünü öldürmək qaldı çarəsi.

Bu minval ilə o, izn istədi,
Coşqun Arpaçayda yusun üzünü.
Ruhum təzələnsin, könlüm açılsın,
Sonra sənə deyim ürək sözümü.

Arpaçay axırdı coşqun, köpüklü,
Ləpələr qayadan daşlar qırırdı.
Baharda dəliyə dönürdü bu çay,
Sahillərə tərəf hey çırpılırdı.

Neçə qız-gəlini alıb qoynuna,
Coşqun sularında salmışdı haray.
Çarəsiz kəslərin göz yaşlarından,
Bəlkə zaman-zaman yaranmış bu çay.

Nisgillə yeridi, o çaya tərəf,
Arpaçay kükrəyib çəkirdi nərə.

Dedi qəribəsən, ey fani həyat,
Son dəfə üzünü tutdu göylərə.

Dedi eşqim mənim ölməz, yenilməz,
Yox olsun qəlbimdən həm kədər, həm qəm.
Sadiq qalacağam, mən Xançobana,
Onu sevəcəyəm məzarım da mən.

Bütün sevənlərə bircə sözüm var,
Bahar havası tək səfalı olun.
Məhəbbət yolunda xəyanət olmaz,
Daim eşqinizlə vəfalı olun!

Mənim məhəbbətim, eşqim də təmiz,
Zərrə tək qatmaram, eşqimə haram.
Dünyada hər şeydən mənə çox əziz,
Eşqimi göylərdən uca tutaram.

Təmiz ana südü bəsləyib məni,
Dünyada var mənim bircə niyyətim.
Düşsün dildən-dilə, elləri gəzsin,
Dönsün əfsanəyə saf məhəbbətim.

Son dəfə ürəkdə belə söylədi,
Unuda bilmərəm, Xançoban səni.
Mən fəda eylədim sənə eşqimi,
Barı ürəyində sən yaşat məni.

Eşqi, məhəbbəti qorumaq üçün,
Özünə qəsd ilə tapmışdı çara.

Son dəfə Xançoban əlvida dedi,
Atıldı bir anda coşqun sulara.

Adı oba-oba gəzdi dillərdə,
Döndü əfsanəyə gözəl Sara da,
Qədim rəvayəti sizə söyləyib,
Bitirdim dastanı mən də burada.

Epiloq əvəzi

Sara ölmədi, əbədiləşdi. Onun ölümündən sonra bütün aran elləri yasa batdı. Göylərin üzünü qara buludlar örtdü. Çöllərdə, çəmənlərdə gül-çiçəklər boyunlarını büküb qəmli baxışlarla yasa batdı. Neçə illər Arpaçay ətrafındakı kəndlərdə, obalarda toy-düyün səsi eşidilmədi. Son dəfə Xançoban Şərur düzündəki Arpaçayın sahilinə-arana gəldi. Saranın gur suların qoynuna atıldığı yerə diqqətlə nəzər saldı. Dəli kimi hayqıran köpüklü sulardan belə bir avazlı, ürəkləri yandıran muğam səsi gəlirdi:

Arpaçayı aşdı-daşdı,
Sel Saranı aldı qaçdı,
Ala gözlü, qələm qaşlı.
Apardı sellər Saranı,
Bir alagözlü balanı.

Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğama
Muğan batıb nahaq qana.
Apardı sellər Saranı,
Bir alagözlü balanı.

Arpaçayı dərin olmaz,
Axar suyu sərin olmaz
Sara kimi gəlin olmaz.
Apardı sellər Saranı,
Bir alagözlü balanı.

Cənubi Azərbaycanın Aslandüz - Naxçıvan– Ordubad
15 yanvar – 28 iyun 2010-cu il

Nəşriyyat redaktoru: *Səadət İsmayılova*
Korrektoru: *Günay Allahverdiyeva*

Yığılmağa verilmişdir: 29.VI. 2010.
Çapa imzalanmışdır: 18.VII. 2010.
Kağız formatı A4. Şərti çap vərəqi: 5
"Times Az Lat" qarnituru. Tirajı 150

Tağı Şabanoğlu. Apardı sellər Saranı. Əfsanə-poema. Naxçıvan, "Məktəb", 82 səh.

"Məktəb" nəşriyyatı
Naxçıvan 2010

2002-ci ildən Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü olan Tağı Şabanoğlu Ordubadın Sabirkənd kəndində müəllim ailəsində anadan olmuşdur. Naxçıvan Dövlət Unversitetinin ilk məzunudur. 50 ilə yaxındır ki, bədii yaradıcılıqla məşğul olur. Müntəzəm olaraq yerli və mərkəzi qəzet və jurnallarında, Naxçıvan radio-televiziyasında çıxışlar edir. «Filial lətifələri», «Bir şair ömrü», «Dünya, səndən gileyliyəm», «Nurlu yolun elçiləri», «Haqq yolun qurbanları», «Sapı özümüzdən olan baltalar», «Bütün Müsəlmanlar bilməlidirlər», «Ürmiyadan Kərbəlaya», «Gəlimli-gedimli dünya», «Ölümlü-itimli dünya», «Xilaskar sərkərdə», «İblis yaşayır», «Oğlan-qız əfsanəsi, yaxud Gilan gözəli», təmsil, lirik şer, nəsr əsərlərin və eləcə də «Ağır günün dostları» tarixi-bədii romanın müəllifidir.

Tağı Şabanoğlu «Apardı sellər Saranı» kitabı ilə yenidən oxucuları ilə görüşə gəlir.